Mehdi Mehdizadə-110

# Görkəmli alim, təhsil təşkilatçısı ehtiramla xatırlandı

## Əjdər Ağayev: «Mehdi Mehdizadənin əsərlərində toxunduğu fundamental məsələlər bu gün də öz aktuallığını saxlamaqdadır»



Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev və Maarif Naziri M.Mehdizadə (1970)

*Yanvarın 17-də Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda Azərbaycan Təhsil Şurası və bu elm ocağının təşkilatçılığı ilə görkəmli alim, təhsil qurucusu və təşkilatçısı Mehdi Mehdizadənin 110 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə açan institutun direktoru, professor Asəf Zamanov görkəmli alimin həyatı, fəaliyyəti və elmi yaradıcılığı barədə geniş məlumat verdi. Onu əsl ziyalı, millətinə, vətəninə bağlı vətəndaş, alim kimi xarakterizə elədi. Eyni zamanda, vurğuladı ki, akademik Mehdi Mehdizadənin pedaqogika elminin, pedaqoq-alimlərin inkişafında, formalaşmasında böyük zəhməti və mühüm rolu olmuşdur.*

Bu gün onun yetirmələrinin sorağı təkcə respublikamızın hər yerindən deyil, onun hüdudlarından kənarlardan da eşidilir. **Asəf Zamanov** Mehdi Mehdizadənin keçmiş SSRİ-də, eləcə də YUNESKO-nun konfrans, müşavirə və iclaslarındakı çıxışlarını, habelə alman, ingilis, fransız, ispan, ərəb və s. dillərdə əsərlərinin də çap olunduğunu diqqətə çatdıraraq görkəmli Azərbaycan aliminin nə qədər geniş diapazonda fəaliyyət göstərdiyini səciyyələndirdi.

### Elmin və insanlığın ən yüksək zirvəsində

Təhsil Şurasının sədri professor **Əjdər Ağayev** konfransda «Akademik Mehdi Mehdizadə-görkəmli təhsil təşkilatçısı» mövzusunda məruzə ilə çıxış elədi. Əjdər Ağayev söylədi ki, Mehdi Mehdizadə elmin ən yüksək zirvəsinə çatdığı kimi insanlığın da əlçatmaz yüksəkliyində dayanırdı. O, adi müəllimlikdən maarif naziri səviyyəsinə qədər yüksəlmişdi. Mehdi müəllim həyatın hər çətinliyini görmüş, üç müxtəlif ictimai-siyasi formasiyanın şahidi olmuşdu. Onun uşaqlığı və ilk gənclik illəri Azərbaycanın Çar Rusiyası tərkibində olduğu illərə təsadüf etmişdir. İlk ibtidai təhsilini rus dilində başlayan Mehdi müəllim 1918-ci ildə müstəqil Azərbaycan Respublikasının qurulması ilə əlaqədar təhsilini Azərbaycan dilində davam etdirmişdir. Mehdi müəllim müxtəlif maarifləndirici işlərdə iştirak etmiş, hələ gənc ikən kitabxana müdiri vəzifəsində də çalışmışdır. O, fəaliyyətinin bütün mərhələlərində yüksək peşəkarlığı, əzmkarlığı, ictimai fəallığı, tələbkarlığı, eyni zamanda humanizmi ilə seçilmiş, məhz bu keyfiyyətlərinə görə Maarif naziri kimi yüksək vəzifəyə layiq bilinmişdir. Onu həyatının bütün mərhələlərində ziqzaqlar müşaiyət etmişdir.



Akademik M.Mehdizadə ölkənin bir qrup alimləri arasında (1982)

### Təhsilin idarəolunması elminin banisi

Mehdi müəllim təhsilin idarəolunması, təhsil quruculuğu sahəsində mükəmməl təcrübəyə malik idi. Əjdər Ağayev söylədi ki, Mehdizadə təhsilin idarəolunmasının elmi-pedaqoji əsasları ilə bağlı fundamental tədqiqatlar müəllifidir. Ümumiyyətlə, Mehdizadəyə qədər Azərbaycanda təhsilin idarəolunmasına dair ciddi elmi tədqiqat əsəri yazılmamışdı. Görkəmli alimin bu əsərləri hətta İttifaq miqyasında da yayılırdı. Rusiyanın aparıcı pedaqoji mətbuat orqanları onun əsərlərini dərhal çap edirdi. Mehdizadənin əsərlərində diqqəti cəlb edən əsas məqam o idi ki, o, elmi-nəzəri fikirlərini təcrübi nəticələrlə yekunlaşdırırdı. Hər bir məsələdə olduğu kimi, təhsili İdarəetmədə də birinci yerdə onun hüquqi əsası dayanır, yazan Mehdizadə göstərir ki, konstitusiyadan, təhsil siyasətini göstərən konseptual sənəddən başlayaraq hər bir fəaliyyətin hüquqi bazası olmalıdır. Məktəbi idarə edən adam bu hüquqi sənədləri bilmirsə, fəaliyyətində yanlışlığa yol verə bilər. Təhsil elə bir sahədir ki, orada yalnız hüquqi baza ilə kifayətlənmək olmaz. Burada pedaqoji, metodiki, elmi-nəzəri əsaslar da vacibdir. Məhz bu əsaslar məktəbin ahəngini təşkil edir. Əgər yanlışlıqlar olarsa, məktəbin, təhsilin ahəngi pozular. O, idarəetmədə formalizmin əleyhinə çıxırdı. Makarenko deyrdi ki, ahəngi pozulmuş ailəni, ahəngi pozulmuş sinfi, ahəngi pozulmuş məktəbi heç bir metodla düzəltmək mümkün deyil. Çalışmaq lazımdır ki, ahəng pozulmasın. O təzədən köklənmir.

Ə.Ağayev vurğuladı ki, Mehdi müəllim əsərlərində idarəetməni liberal, demokratik və bürokratik olmaqla üç yerə ayırır, ən yaxşı idarəetmə metodu kimi, demokratik idarəetməni göstərirdi. Mehdizadə idarəetmədə metodik məsələlərə də toxunur. Bütün bunlar Mehdizadənin əsərlərində dolğunluğu ilə əks olunur. Mehdi Mehdizadənin əsərlərində fundamental şəkildə toxunduğu məsələlər bu gün də öz aktuallığını saxlamaqdadır. O, idarəetmə sahəsində görkəmli alim olaraq, SSRİ Pedaqoji Elmlər Akademiyasının vitse prezidenti Kondakovun elmi məsləhətçisi idi. Buna rəğmən idarəetmə üzrə tədqiqatçılara ittifaq miqyasında məsləhətçilik edir və öz əsərlərini yazırdı.

Əjdər Ağayev daha sonra söylədi ki, Mehdizadənin görkəmli alim olmaqla bərabər, bir şəxsiyyət, bir insan, bir ziyali kimi də yüksək keyfiyyətlərə malik olmasının canlı şahididir: «Vaxtilə nahaq yerə yazmamışam ki, «Mehdi Mehdizadənin kollegiya iclaslarının hər biri bir universitet dərsi idi», deyən Əjdər Ağayev onun yaratdığı elm pedaqoji irsin daim aktual olaraq yaşayacağını vurğuladı. Onu da qeyd etdi ki, Mehdizadə irsi bu gün öyrənilməli və tətbiq edilməlidir.

Konfransın digər məruzəçisi, pedaqoji elmlər doktoru, professor Vidadi Xəlilov «Akademik Mehdi Mehdizadənin pedaqoji irsində müasirlik tendensiyaları» mövzusunda çıxış etdi. Natiq söylədi ki, akademik Mehdi Mehdizadənin elmi-pedaqoji fəaliyyətində müasirlik tendensiyaları zamanında nə qədər aktual idisə, bu gün daha aydınlığı ilə görünməkdədir. Mehdi Mehdizadə dərsdədərslər kompleksində bütün şagirdlərin məhsuldar işlə təmin edilməsini, onların idrak fəaliyyətinin və müstəqilliyinin artırılmasını müəllimlərin qarşısında duran əsas vəzifələrdən biri hesab edirdi. Onun fikrincə, Vidadi Xəlilov sözünə davam edərək söylədi, bunlar dərsin effektliliyinin artırılmasının əsas şərtlərindən olmaqla, təlim prosesinin elə bir istinad nöqtəsidir ki, məhz həmin cəhətlərlə şagirdlərin bilik səviyyəsini və müvəffəqiyyətini ciddi surətdə və qətiyyətlə yüksəltmək olar.

### Müasir dövrlə səsləşən ideyalar müəllifi

V.Xəlilov şagirdlərin tədqiqatçılıq qabiliyyətinin inkişafında təlim metodlarının tətbiqi imkanlarının, müəllimin rolunun, funksiyasının da alimin diqqətindən yayınmadığını və bu məsələlərə əsərlərində geniş aydınlıq gətirdiyini vurğuladı. Fikrini konkret misallarla ümumiləşdirdi. O, daha sonra akademik Mehdizadənin təlim metodlarının təsnifatı ilə bağlı irəli sürdüyü məsələlərə də münasibət bildirdi. Mehdi Mehdizadə ideyalarının müasir dövrlə nə qədər səsləşdiyini nəzərə çatdıran Vidadi Xəlilov ümidvar olduğunu bildirdi ki, indiki və gələcək tədqiqatçılar Mehdi Mehdizadənin məna dəyəri, müasirliyi ilə diqəti cəlb edən zəngin pedaqoji irsindən zaman-zaman faydalanacaqlar.

Tədbirdə Təhsil Problemləri İnstitutunun direktoru professor **Abdulla Mehrabov**, həmin institutun direktor müavini professor **Yəhya Kərimov**, «Azərbaycan məktəbi» jurnalının baş redaktoru, filologiya elmləri namizədi **Nəcəf Nəcəfov**, Təhsil Muzeyinin direktor müavini **Arif Muradov**, əməkdar müəllim **Aliyə Təhmasib** və digərləri Mehdi müəlimlə bağlı maraqlı xatirələrini dilə gətirdilər. Mehdi müəllimin övladları pedaqoji elmlər namizədi **Zemfira Mehdizadə** və **Nailə Mehdizadə** atalarının təkcə dəyərli alim, görkəmli maarif qurucusu kimi deyil, həm də bir ata kimi mənəvi zənginliyindən bəhs elədilər, elmi-praktik konfransın təşkilatçılarına minnətdarlıqlarını bildirdilər.

***B.ƏLİSƏFAOĞLU***